*Biz azərbaycanlılar bundan sonra öz dədə-baba torpaqlarımızda əbədi yaşayacağıq. Bütün dağıdılmış şəhərləri, kəndləri yenidən quracağıq, həyat qayıdacaq, insanlar qayıdacaq və biz bütün dünyaya bir daha xalqımızın böyüklüyünü göstərəcəyik.*

***İlham ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti***

# Qarabağın bərpası ilə Azərbaycan gücünü dünyaya nümayiş etdirir





***Ordumuz 44 günlük Vətən müharibəsi ilə Qarabağı və ətraf rayonları erməni işğalından azad etdi. Bununla ərazi bütövlüyünü reallaşdıran Azərbaycanın hazırda qarşısında duran ən mühüm vəzifə işğaldan azad olunan ərazilərin yenidən qurulması və dirçəldilməsidir. Bu istiqamətdə artıq mühüm layihələrin icrasına başlanılıb.***

Hazırda erməni vəhşiliyinin izləri qalan Qarabağ və Şərqi Zəngəzurda genişmiqyaslı abadlıq-quruculuq tədbirləri həyata keçirilir. Prezident İlham Əliyevin işğaldan azad olunan rayonlara səfərləri də göstərir ki, Azərbaycan dövləti düşməndən təmizlənən ərazilərin bərpası və yenidən qurulması ilə bağlı layihələrin reallaşdırılmasını diqqət mərkəzində saxlayır. Dövlətimizin başçısı tərəfindən erməni faşizminin qurbanı olan yaşayış sahələrində mühüm strateji obyektlərin, müəssisələrin təməlinin qoyulması, tikinti işlərinin geniş vüsət alması, yüksək texnologiyaların tətbiqinə start verilməsi məhz bunun məntiqi nəticəsidir.

Bu gün gerçəkləşdirilən tikinti-quruculuq işləri – vandallar tərəfindən yerlə-yeksan edilən şəhər və kəndlərimizin sürətlə bərpası əzəli torpaqlarımıza qayıdışımızı günbəgün yaxınlaşdırmaqla bərabər, eyni zamanda, bütün dünyaya Azərbaycanın güc-qüdrətini, dövlətimizin başçısının möhkəm iradəsini, yüksək idarəçilik məharətini və qurub-yaratmaq əzmini nümayiş etdirir.

Onu da xatırladaq ki, Vətən müharibəsində əldə edilən parlaq qələbə sayəsində bu gün Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsinin qurulmasındakı maneənin aradan qalxması nəticəsində region ölkələrinin faydalana biləcəyi yeni avtomobil və dəmir yolu şəbəkələrinin formalaşdırılması imkanı da gerçəkləşdirilir. Bununla əlaqədar Zəngəzur dəhlizinin fəaliyyəti istiqamətində mühüm tədbirlər görülür. Sözügedən istiqamətdə Türkiyə ilə səmərəli əməkdaşlıq xüsusi diqqət çəkir. Başqa sözlə, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında infrastruktur layihələrinin, yolların tikintisində qardaş ölkənin şirkətləri fəal iştirak edir. Cari ilin fevral ayında iqtisadi əlaqələrin inkişafı məqsədilə Azərbaycan və Türkiyə arasında dağ-mədən, tekstil, nəqliyyat-logistika, kiçik və orta sahibkarlıq və investisiyaların təşviqi, memarlıq-layihələndirmə kimi sahələrdə ümumilikdə 11 protokol imzalanması bunun bariz ifadəsidir. Bütün bu imkanlar fonunda əməkdaşlığın genişləndirilməsi, birgə istehsal müəssisələrinin təşkili, nəqliyyat-logistika, həmçinin əlverişli coğrafi mövqe üstünlüklərindən istifadə ölkələrimizin qarşılıqlı ticarətinin, investisiya qoyuluşlarının artacağını şərtləndirir. Eyni zamanda, mövcud vəziyyət bölgədə nəqliyyat-kommunikasiya əlaqələrini gücləndirəcəyi, işğaldan azad edilmiş torpaqlarımızın bərpasında və inkişafında səmərəliliyin yüksələcəyi əminliyi yaradır.

Düşməndən təmizlənən torpaqlarda turizm, kənd təsərrüfatı, dağ-mədən və hasilat sənayesi, tikinti materialları istehsalı, alternativ enerji kimi potensial sektorların yenidən canlandırılması və ölkə iqtisadiyyatına inteqrasiyası, habelə bölgədə yeni nəqliyyat-logistika dəhlizlərinin formalaşdırılması istiqamətində həyata keçirilən tədbirlər digər türkdilli ölkələr ilə əlaqələrimizin genişləndirilməsində də yeni perspektivlər vəd edir.

Qarabağın bərpasında infrastrukturun qurulmasının zəruriliyindən danışarkən, yol çəkilişlərinin də hökumətin xüsusi diqqətində saxlanıldığını xatırlatmaq istərdik. Bununla bağlı əvvəlcə onu deyək ki, müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə şanlı ordumuzun ölkəmizin mədəniyyət mərkəzi elan olunan Şuşa şəhərini mənfur düşməndən təmizlərkən istifadə etdiyi cığıryolun əbədiləşdirilməsi məqsədilə tikilən, dövlət başçısı tərəfindən "Zəfər yolu" adlandırılan avtomobil yolunun inşası artıq tamamlanmaq üzrədir.

Dövlət başçısının tapşırığına əsasən, ötən il noyabr ayının 16-da təməli qoyulan və uzunluğu 101 kilometr təşkil edən "Zəfər yolu" Qarabağın inkişaf planı nəzərə alınmaqla 2-ci texniki dərəcəyə uyğun inşa edilir. Başlanğıcını Hacıqabul–Mincivan–Zəngəzur dəhlizi magistral avtomobil yolundan götürməklə yol Qarabağın tacı olan Şuşa şəhərinə qədər uzanır.

Azərbaycan Prezidenti İlham Əliyev avqustun 29-da Əhmədbəyli–Füzuli–Şuşa Zəfər yolunda son tamamlama işləri ilə tanış olarkən məlumat verildi ki, "Zəfər yolu"nun tikintisi artıq başa çatmaq üzrədir. Hazırda yolun 92 kilometrlik hissəsinə asfalt-beton örtüyü salınır. Digər hissələrdə isə işlər davam etdirilir.

Yeri gəlmişkən, Azərbaycan Prezidenti İlham Əliyev avqustun 30-da Şuşada Vaqif Poeziya Günlərinin rəsmi açılışında çıxışı zamanı dedi: "Şuşanın bərpası yanvarın 14-dən başlanmışdır və qısa müddət ərzində böyük işlər görüldü. İlk növbədə, yol çəkildi. İndi gəldiyiniz "Zəfər yolu" nə vəziyyətdə idi biz onu yanvarın 14-də gördük. Biz Füzulidən təqribən iki saat yarıma-üç saata gəldik. Şaxtalı, qarlı hava idi, yol da yox idi, bir cığır idi, üstü buz, palçıq. İndi isə artıq asfalt yol tikilib və bu, elə Zəfər yoludur. Magistral yol da çəkilir. Füzuli şəhərindən tunellər daxil olmaqla, magistral yol tikilir, daha qısa yol olacaq...".

Azərbaycanın dövlət başçısının işğaldan azad olunan ərazilərə hər səfərində hansısa strateji əhəmiyyətli yolun və ya hava limanının təməli qoyulur. Məsələn, Prezident İlham Əliyev cari il yanvarın 14-də işğaldan azad olunan Füzuli rayonuna səfəri çərçivəsində Əhmədbəyli–Füzuli–Şuşa avtomobil yolunun 27-ci kilometrində Füzuli–Şuşa yolunun, həmçinin Füzuli rayonunda hava limanının təməllərini qoyub.

Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən fevralın 14-də təməli qoyulan Horadiz–Ağbənd dəmir yolu xəttinin ümumi uzunluğu 100 kilometrdir. Bu dəmir yolunun strateji əhəmiyyəti olduqca böyükdür. Çünki bu nəqliyyat infrastrukturu Azərbaycan vətəndaşlarının azad olunmuş torpaqlara gediş-gəlişinin təminatında əhəmiyyətli rol oynayacaq və ən mühüm məsələ Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında birbaşa dəmir yolu nəqliyyat əlaqəsinin yaranmasına böyük töhfə verəcək.

Bundan başqa, Qarabağda Füzuli–Hadrut, Zəngilan–Horadiz, eləcə də Bərdə–Ağdam avtomobil yollarının artıq təməlləri qoyulub. Həmçinin, Laçın şəhərinə daxil olmadan yeni alternativ avtomobil yolu çəkilir. Bu yolun uzunluğu təxminən 80 kilometr olacaq.

Onu da qeyd edək ki, bu günlərdə Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi Qarabağ və Şərqi Zəngəzurda çəkilən avtomobil yollarının xəritəsini açıqlayıb. Xəritə ümumi uzunluğu 665,4 kilometr olan və hazırda tikilən 10 əsas avtomobil yolunu əhatə edir. Bundan əlavə, xəritəyə tikintisi nəzərdə tutulan, lakin uzunluğu qeyd olunmayan avtomobil yolları da daxildir.

Məlumata görə, hazırda 101 kilometrlik Zəfər yolunun tikintisi ilə yanaşı 81,6 Əhmədbəyli–Füzuli–Şuşa, 80,7 kilometrlik Toğanalı–Kəlbəcər–İstisu, 72,3 kilometrlik Kəlbəcər–Laçın, 123,8 kilometrlik Əhmədbəyli–Horadiz–Mincivan–Ağbənd yollarının tikintisi davam etdirilir.

Həmçinin, 22 kilometrlik Talış–Tapqaraqoyunlu–Qaşaltı, 83 kilometrlik Xudafərin–Qubadlı–Laçın, 43 kilometrlik Şükürbəyli–Cəbrayıl–Hadrut, 13 kilometrlik Füzuli–Hadrut və 45 kilometrlik Bərdə–Ağdam avtomobil yolları tikilməkdədir.

Bu gün Şərqi Zəngəzurun bərpası da diqqətdə saxlanılır. Bölgədə energetika sisteminin yaradılmasına xüsusi önəm verilir. Bunun nəticəsidir ki, artıq bu ərazilərdə 20 meqavatdan çox elektrik enerjisi alternativ mənbələrdən hasil edilir.

Onu da qeyd edək ki, bölgədə su elektrik stansiyalarının sayının tədricən təxminən 20-yə çatdırılacağı nəzərdə tutulub. Həmçinin, Prezident İlham Əliyev tərəfindən, Qarabağla yanaşı, Şərqi Zəngəzurun da "yaşıl enerji" zonası kimi yaşayacağı elan edilib.

Qarabağda bərpa işlərini daha da sürətləndirmək məqsədilə istər yerli, istərsə də xarici iş adamlarına əlverişli şəraitin yaradılması da diqqət mərkəzində saxlanılır. Bunun üçün investisiya qoyuluşunu təşviq edən əlavə xüsusi vergi imtiyazlarının yaradılması nəzərdə tutulur.

Bu, Maliyyə Nazirliyinin 2022-ci il üçün icmal büdcəsinin proqnozunda əksini tapıb. Belə ki, işğaldan azad edilən ərazilərin inkişafının təşviqi üçün xüsusi vergi rejiminin tətbiq olunması, yeni istehsal sahələrinin qurulmasına görə kapital qoyuluşlarına uyğun güzəştlərin nəzərdən keçirilməsi, turizmin inkişafı üçün vergi təşviqlərinin verilməsi, strateji məhsulların istehsalı üzrə kapital qoyuluşunda ƏDV-nin sürətli bərpası və ya idxal əməliyyatları zamanı yaranan ƏDV borcları ilə əvəzləşdirilməsi tədbirlərinin ortamüddətli dövrdə həyata keçirilməsi planlaşdırılıb.

Sonda qeyd edək ki, düşməndən təmizlənən ərazilərin bərpasına cari ilin ilk altı ayı ərzində dövlət büdcəsindən işğaldan azad olunan yaşayış sahələrinin yenidən qurulması və bərpası xərcləri üzrə 372,1 milyon manatın maliyyələşdirilməsi təmin edilib.

Bu, Maliyyə Nazirliyinin 2022-2025-ci illər üçün makrofiskal çərçivə və 2022-ci il üçün icmal və dövlət büdcələrinin ilkin göstəricilərinə dair açıqlamasında qeyd olunub. Açıqlamada, eyni zamanda, bu vəsaitin avtomobil yollarının layihələndirilməsinə, tikintisinə, yenidən qurulmasına, həmçinin dəmir yolu xəttinin layihələndirilməsi və tikintisinə, digər kommunikasiya xətlərinin yenidən qurulması və layihələndirilməsinə yönəldildiyi bildirilib. Bütün bunlarla bərabər, Zəngilan rayonunun İkinci Ağalı kəndi ərazisində "ağıllı kənd"in layihələndirilməsi və tikintisi üçün Kənd Təsərrüfatı Nazirliyinə 10,8 milyon manat vəsait ayrılıb.

***V.BAYRAMOV,***
***"Xalq qəzeti"***